Bu layihə çərçivəsində Akademik Zərifə Əliyeva adına liseydə respublika tabeli lisey və gimnaziyaların biologiya və həyat bilgisi fənlərini tədris edən 22 nəfər müəllim üçün "Təhsil müəssisələrində reproduktiv sağlamlığın tədrisi" mövzusunda təşkil olunmuş təlim kursu üç gün davam edib. Təlimi uğurla başa vurmuş müəllimlərə "Təlimçilər üçün təlimçi" sertifikatı təqdim olunub.

Sertifikatların təqdimat mərasimində Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdir əvəzi Vasif Məmmədov, Pilot layihələrlə iş üzrə sektorun müdiri Rüfət Əliyev, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin şöbə müdiri Nabil Seyidov və digər qonaqlar layihənin uğurları və inkişaf perspektivləri barədə iştirakçılara geniş məlumat veriblər.

Təlimlərin keçirilməsində məqsəd gənc nəslin zərərli vərdişlərdən qorunması, yeniyetmələr arasında sağlam həyat tərzi və reproduktiv sağlamlıqla bağlı aparılan maarifləndirmə işlərinə töhfə verməkdən ibarətdir.

Təlimlər Təhsil Nazirliyinin baş məsləhətçiləri Elnur Əlizadə, Vəfa Yaqublu, həmçinin Səhiyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin məsul əməkdaşları Nabil Seyidov, Teymur Hüseynov, Afət Məmmədova və Azərbaycan Dövlət İdarəçilik Akademiyasının dosenti Gülarə Hüseynova tərəfindən aparılıb.